**UOT 008:14**

***Xaliq Dadaşov***
***Azərbaycan Texniki Universitetinin dosenti***
***Az. 1073, Bakı şəh., H.Cavid pr. 25***
***E-mail:*** **dadasov@mail.ru**

# MƏDƏNİYYƏT VƏ İDEOLOGİYA (MƏDƏNİYYƏTLƏRARASI DİALOQ)

**Xülasə:** Məqalədə göstərilir ki, mədəniyyətlərarası dialoq ilk növbədə müxtəlif millətlərin və xalqların yaxınlaşmasında böyük rol oynayır. Qeyd olunur ki, mədəniyyət və ideologiyanın dialektik əlaqəsində hər hansı bir tərəfə üstünlük vermək olmaz. Müəllifin gəldiyi qənaətə görə, Mədəniyyətlərin və ünsiyyətin qarşılıqlı təsirlərinin daha da sürətlə baş verdiyi indiki dövrdə dialoqun alternativi yoxdur.

**Açar sözlər:** mədəniyyət, ideologiya, dialoq, cəmiyyət, inkişaf, siyasət, qloballaşma.

Mədəniyyətlərarası dialoq ilk növbədə müxtəlif millətlərin, xalqların, etnosların yaxınlaşmasında olduqca mühüm rol oynayır. Bu, hər şeydən əvvəl ayrı-ayrı dövlətlər arasında qarşılıqlı anlaşmaların olmasına, müxtəlif adət və ənənələrə, dinə, inkişaf səviyyəsinə malik olan insanların çox da böyük olmayan planetimizdə əmin-amanlıq şəraitində yaşamasına şərait yaradır, insanların dünyagörüşünə müsbət təsir göstərir.

Mədəniyyət və ideologiyanın dialektik əlaqəsində hər hansı bir tərəfə üstünlük verilməsi bizcə yersizdir. Əsas məsələ bu iki tərəfin cəmiyyətdə oynadığı rolu lazımi səviyyədə qiymətləndirmək və fərdlərin təkmilləşməsində onların oynadığı rolu dərk etmək və onlardan səmərəli istifadə etməkdən ibarətdir.

Müəyyən mədəni səviyyəyə malik olmayan insan öz hərəkətlərini məntiqi ardıcıllıqla qurmağa qadir deyildir.

Qeyd edilməlidir ki, mədəniyyətin cəmiyyətdə ictimai asayişin təmin edilməsində də böyük rolu vardır. Cəmiyyətin mövcudluq prinsipləri hər cür cinayətkarlığa qarşı mübarizə aparılmasını tələb edir. Cəmiyyət üzvlərinin mədəni səviyyələrinin yüksək olduğu şəraitlərdə asayişin səviyyəsi də yüksək olur. Bu cür cəmiyyətlərdə mədəniyyət özünün sosial nəzarət funksiyasını bilavasitə yerinə yetirir. Bunun səbəblərindən biri ondan ibarətdir ki, yüksək ailə tərbiyəsi, mükəmməl təhsil, lazımi səviyyədə kitab oxuyan insan məsuliyyətli olur və imkan daxilində öz hərəkət və davranışlarını tənzimləməyə çalışır.

Mədəniyyətlərin dialoqu eyni zamanda qloballaşma ideyalarına və ideologiyasına öz təsirini şübhəsiz ki, göstərir. Odur ki, qloballaşma prosesi həm də ayrı- ayrı insanların, fərdlərin, millətlərin siyasi yetkinlik səviyyəsini tələb edir.

Deyildiyi kimi, mədəniyyət sistemdir. Azərbaycan mədəniyyəti ümumdünya mədəniyyət sisteminin bir qolu olmaqla tarix boyu dünya mədəniyyətinininkişafına öz görkəmli töhfələrini vermişdir (xüsusən ədəbiyyat və incəsənət sahəsində). Ümummilli lider H.Əliyevin qeyd etdiyi kimi ikinci minilliyin tarixi əyani surətdə göstərdi ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti xətti ilə seçilən xalqlardandır [1].

Məlumdur ki, mədəniyyət, elm və təhsil insanların ən böyük mənəvi dəyərləri olaraq sabit inkişafı təmin edən ən mühüm amillərindən biridir. Azərbaycanın tarixi təcrübəsi bu baxımdan dəyərli və intəhasızdır. Azərbaycan yarandığı gündən özünün tolerantlığı ilə seçilən, bütün millət və xalqlara eyni gözləbaxan, onların adət və ənənələrini öz adət və ənənələri kimi qəbul edən bəlkə də dünyada yeganə ölkədir. Azərbaycanın bu cür həyat tərzi Qərb üçün bir nümunə olmalıdır.

Sivilizasiyaların və mədəniyyətlərin inkişafı və dialoqu millətləri və xalqları biri-birinə yaxınlaşdırmalı, onların «planetar dövlətdə» qovuşmasına gətirib çıxarmalıdır. Bu gün Qərbin bir sıra ideoloqları mədəniyyətlərin və sivilizasiyaların getdikcə sürətlə inkişaf etməsindən tamamilə başqa nəticələr çıxarır, gələcəkdə onların mütləq birinin digərini məhv edəcəyi fikrini təlqin edirlər.

Göstərilməlidir ki, sosial-siyasi proseslər geniş anlayışdır və söz yox ki, öz əksini müasir qloballaşma şəraitində mədəniyyətlərin dialoqunda, qarşılıqlı əlaqəsində tapır. Bununla belə qloballaşma prosesi həm də millətin və eləcə də onun ayrı-ayrı üzvlərinin siyasi yetkinlik səviyyəsinin yüksək olmasını tələb edir. Müasir dünyada baş verən siyasi proseslərdən baş çıxarmaq və öz fəaliyyətini onunla uzlaşdırmaq üçün millətin və eləcə də şəxsiyyətin siyasi mədəniyyət səviyyəsi qabaqcıl ölkələrin və xalqların siyasi mədəniyyətləri ilə ayaqlaşmalıdır.

Bu gün «azərbaycançılıq» ideyası etnik-milli və bəşəri müstəviləri əhatə etmək baxımından yekcinsliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal gerçəkliyinin tələblərinə cavab verir. Akad. R.Mehdiyev bu barədə öz mövqeyini ifadə edərək yazır: «Xalqımızın tarixi keçmişinin, günümüzün reallıqlarını, ümummilli psixoloji yönümlərimizi, mentalitetimizi, adət-ənənələrimizi, sivil beynəlxalq təcrübəni nəzərə alan, Azərbaycanın sintetik yeniliklərə açıq, konstruktiv rol oynayan ideoloji inkişaf konsepsiyası kimi,

«azərbaycançılıq» ideologiyasının yaranması və yayılması müstəqillik illərində Heydər Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi olmuşdur»[2].

Qarşımızda duran vəzifələr və gələcək oriyentirlər baxımından Azərbaycançılıq ideologiyasının çağırış və şüar deyil, hərtərəfli dərin elmi-nəzəri məfkurə olmasını hər kəs dərk etməlidir. Azərbaycançılığın əsas qayəsini müstəqillik, dövlətçilik, millilik, dünyəvilik, ədalət, demokratiya, milli tərəqqi və s. kimi anlayışlar təşkil edir. Azərbaycançılıq xalqımızın çətinliklə əldə etdiyi, ölkəmizdə yaşayan bütün millətlərin və etnik qrupların qarşılıqlı ünsiyyət və münasibətinin ümumi taleyini əks etdirən əvəzsiz tarixi sərvətdir.

Dünya mədəniyyətinin və eləcə də Azərbaycan mədəniyyətinin tarixi ənənələrinin inkişaf etdirilməsi sahəsində mühüm işlər görən respublika iqtidarı mədəniyyət nümunələrinin mühafizəsi və milli-mənəvi dəyərlərin qorunması istiqamətində son illərdə xeyli işlər görmüşdür. Məsələn, Mehriban Əliyevanın təşəbbüsü ilə 1996-cı ildə yaradılmış Azərbaycan Mədəniyyəti Dostları Fondu xalqımızın mədəni irsinin bütün dünyada təbliğinə, qiymətli incəsənət abidələrinin qorunmasına xidmət edir.

Azərbaycan mədəniyyətinə bu qədər yüksək qiymət verilməsi Prezidentin xanımının xalqımızın milli-mənəvi dəyərlərinə sonsuz bağlılığının əyani təzahürüdür. Elə bunun nəticəsidir ki, 2004-cü ilə Mehriban xanım Əliyeva YUNESKO kimi nüfuzlu bir təşkilatın xoşməramlı səfiri vəzifəsinə seçilmişdir.

Millətlərin yaxınlaşmasında və dialoqunda Azərbaycan dövlətinin siyasəti və ideologiyası hətta bizə ikili standartlarla yanaşan qərb dövlətləri tərəfindən də etiraf edilmişdir. Azərbaycanda mədəniyyətlər və dinlərarası münasibətlərindurumu etnik-milli-bəşəri müstəvilərin ahəngdar mövcudluğu baxımından dünyayabir mesaj ola bilər. Bizim diyarda həmişə dialoq sənəti: həm dinləmək, həm də dinlənilmək, məsləhətləşərək qərar qəbul etmək bacarığı tarix boyu yüksək qiymətləndirilmiş, mənəvi dəyər əhəmiyyəti kəsb etmişdir. Xalqımızın: «Əgər məsləhət etməyə bir adam yoxdursa, papağını qabağına qoy, onunla məsləhətləş» – deyimi dialoqa münasibətin bazis nümunəsidir. Mədəniyyətlərarası münasibətlərdə Azərbaycan xalqının dioloji potensialı: tolerantlıq, humanizm, xeyirxahlıq, yalnız mənəvi-mədəni deyil, həm də çox dərəcədə ictimai məzmun daşıyır. Bunlar xalqımızın şərəf, ləyaqət, həqiqət və s. dair təsəvvürlərindən ayrılmazdır və Azərbaycanda müxtəlif xalqların birgəyaşayışının immanent mənəvi-sosial nizamlayıcısı kimi çıxış edir [3]. Ancaq Şərq və Qərbin dialoqunda azərbaycançılıqdan və azərbaycançılıq ideyasından qaçmaq olmaz. Xüsusən Azərbaycanda müxtəlif dialoqlarda (hətta gərgin dialoqlarda belə) ağsaqqalların və ağbirçəklərin sözlərini eşitmək, onları nəzərə almaq Azərbaycan xalqının ən gözəl cəhətlərindən biridir.

Hələ əsrin əvvəllərindən «siyasi millət» kimi formalaşan azərbaycanlılar indi demokratiyanın verdiyi ideyalardan bəhrələnmək yolu ilə vətəndaş cəmiyyəti və vətəndaş siyasi mədəniyyəti ilə maraqlanmaq əzmindədirlər. Bu da onların qloballaşmaya gedən yolunu rəvan və asan etməlidir.

Mədəniyyət böyük bir okean olub hər tərəfi əhatə etməyə qadirdir və hər bir insan həmin okeandan bəhrələnib özünə lazım olan tərəfləri götürüb mənəvi dünyasını formalaşdırmağa borcludur. Bu sözlər tədqiq etdiyimiz mövzunun açıqlanması

üçün bir açar verir. Müasir sivil dünya insanların və onların mənsub olduğu tarixi insan birliklərinin yerinin və rolunun nədən ibarət olması faktını üzə çıxarır, onların müasir qlobal siyasi proseslərdə oynadığı rolunu əks etdirir. Həqiqətən də mədəniyyətlərin və sivilizasiyaların dialoqu problemi, onların bu günki qlobal siyasi proseslərə təsiri məsələləri hazırki ictimai elmlərin diqqət mərkəzində dayanan məsələlərdəndir. Buna görə də indiki şəraitdə xüsusən ictimai fənlərin roluolduqca vacib və əhəmiyyətlidir. Biz təhsil sistemində ictimai fənlərə ögey münasibət göstərib, qısqanclıq edib lazımi səviyyədə yanaşmırıq, əksinə insanların dünyagörüşünü, mənəvi zənginliyinin artırılmasında fəlsəfə, sosiologiya, politologiya və s. humanitar elmlərin tədrisini zamanın tələblərinəuyğunlaşdırmağa çalışmalıyıq.

«Azərbaycançılıq» ideologiyası dövlətçiliyimizin gələcəyi üçün qlobal düşüncə tərzi ilə lokal fəaliyyətin uğurlu sintezini təmin edən, bütün dünyadakı azərbaycanlıları da əhatə edən mənəvi, imperativ kimi hər kəsə aid olur.

Bu gün dünya sivilizasiyasının inkişafını səciyyələndirən əsas cəhət sosial-iqtisadi, intellektual, mədəni həyat və dövlət idarəçiliyinin bütün sahələrində baş verən müxtəlif dəyişikliklərdən və bunların hər bir xalqın taleyinə ciddi surətdə təsir göstərməsindən ibarətdir. Söhbət tarixin subyekti və dünya sivilizasiyasının müstəqil yaradıcısı və hərəkətverici qüvvəsi kimi millət və xalqların qarşıqlı təsir və əlaqələrindən gedir. Belə ki, sivilizasiyanın məzmununda iqtisadi, siyasi, ideoloji və nəhayət milli amillərin nisbəti dəyişir və bunlar ictimai münasibətlərin bütün sistemində öz dərin izini qoyur. Müasir şəraitdə sivilizasiya hər bir adamın konkret «məniylə», xalqların sosial həyat və ideya-mənəvi birliyini özündə təcəssüm etdirən milli mədəniyyətlərlə sıx vəhdətdə inkişaf edir. Odur ki, müstəqil milli dövlət quruculuğu, ictimai-siyasi həyatın dərin demokratikləşdirilməsi və humanistləşdirilməsi, sözün əsl mənasında milli intibaha nail olunması dünya sivilizasiyası ilə sıx əlaqələrə nail olunmasını tələb edir.

Nəzərə çatdırılmalıdır ki, insanların etnik, dini mənsubiyyəti, irqi, dili, mədəniyyətinin müxtəlifliyi, təbii-bioloji kökləri haqqında müxtəlif fikirlər mövcuddur. Lakin insanın genetik kodunun araşdırılması göstərir ki, bütün bəşəriyyət bir «xəritədən» yoğrulmuşdur. Təbiətdə müxtəliflik nə qədər lazımdırsa, qloballaşan cəmiyyətdə də mədəniyyətlərin çələngi yekrəng ola bilməz.

Ümumiyyətlə, dialoqa çağırış və dialoq təşəbbüsü qlobal cəmiyyətin bütün üzvlərinə yönəldilmişdir. Dialoq dəvətindən belə nəticə hasil olunur ki, dünyanın bütün ölkələri heç bir ayrı-seçkilik qoyulmadan dialoqda iştirak edə bilər.

Qloballaşan dünyada ən müxtəlif mədəniyyət, irq, etnik qrup və dinlərin nümayəndələri bir-biri ilə daha tez-tez üzləşir, mədəni əlaqələri, ünsiyyət formaları daha da zənginləşir. İnsanlar daha yaxşı dərk edirlər ki, onların həyat tərzi bir çox mədəniyyətlərin təsiri altında baş verir; həmçinin həm özünün, həm də başqasının mədəniyyətinə həssaslıq göstərmək tələbata çevrilir. Hər bir şəxs öz inamı, tarixi keçmişi və kökləri qədimlərə gedib çıxan mədəniyyətimizlə fəxr edə bilər, eyni zamanda mütləq başqasına nifrət bəsləməyə də bilər. Mədəniyyətlərarası dialoqun əbədi humanist ideyası, böyük siyasi və praktiki imkanı, qlobal gələcək üçün əhəmiyyəti və dəyəri məhz buna söykənir. Ancaq cəmiyyət özünü unudub (öz problemləri artıq həllini tapıb deyə), azlıqların (etnik azlıq, narkomanlar, AİDS-ə

tutulanlar və s.) dərdini çəkməyə və onlara qayğı göstərməyə, onlar üçün hüquqi baza yaratmağa çalışmalıdır.

Hər bir cəmiyyətdə etnik mədəniyyət, müəyyən dəyərlər və mənalandırma sistemi olmaq etibarı ilə, ümumiyyətlə, «mədəniyyət aləmi» və həm də «öz mədəniyyəti»nin bu aləmdə tutduğu özünəməxsus yerlə bağlı təsəvvürlərə malik olur. Mədəni universumun vəhdəti və rəngarəngliyi sayəsində, mədəniyyətlərarası qarşılıqlı təsirin müəyyən strategiyaları formalaşdırılır. Bu strategiyalar eyni zamanda mədəniyyətlərarası münasibətlərin davranış-ünsiyyət nümunələri timsalında da çıxış edirlər.

**Ədəbiyyat:**


1. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin astanasında. Bakı: 2001;
2. Mehdiyev R. XXI əsr: milli dövlətçilik. Bakı: 2003, 434 s.
3. Mustafayev S. Qloballaşmanın sosial-mənəvi problemləri // «Fəlsəfə» elmi-nəzəri jurnal, №1(10). Bakı: 2008
4. Aslanova R. XXI əsr: yeni mədəniyyət məkanına inteqrasiya. Bakı: Nurlan, 2007, 2007, 440 s.
5. Rüstəmov Y. Sivilizasiyaların dialoqu bəşəriyyətin vəhdətinə aparan yoldur. Şərq-Qərb: Sivilizasiyaların dialoqu, №1, Bakı, 2005, 9-23 s.



**Халиг Дадашов**


**Культура и идеология**
**(межкультурный диалог)**
**Резюме**


Статья посвящена проблемам культуры и идеологии в аспекте межкультурного диалога. Автор указывает, что межкультурный диалог в первую очередь способствует сближению различных наций и народов. В статье раскрывается диалектическая связь между культурой и идеологией. Кроме того отмечается, что нет альтернативы диалогу в современном мире.



**Ключевые слова:** культура, идеология, диалог, общество, политика, глобализация.



**Khalig Dadashov**


**Culture and ideology**
**(intercultural dialogue)**
**Summary**


The article shows that cross-cultural dialogue, primarily helps and plays a big role in the rapprochement of different Nations and peoples. It should be noted that in the dialectical relation between culture and ideology one shouldn`t give an advantage to any side. The article also notes that in modern time there is no alternative to dialogue.



**Keywords:** culture, ideology, dialogue, society , politics, globalization

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.06.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.06.2018Məqalənin çapa qəbul olunma tarixi: 27.06. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: dosent Sədaqət ƏliyevaADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**